

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 193 (21.854)

*12 oktyabr 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasının Soçi şəhərinə səfərə gedib.

Həmin gün Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdiriblər.

Dövlət başçıları birgə foto çəkdirdikdən sonra iclas öz işinə başlayıb.

Prezident İlham Əliyev iclasda çıxış edib.

Oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclasın sonunda sənədlərin imzalanması mərasimi olub. Ümumilikdə, qurumun fəaliyyəti ilə bağlı 18 sənəd imzalanıb.



## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura iclası keçirilib



*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının növbəti şura iclasında 2017-ci ilin doqquz ayında görülmüş işlər müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib. Gündəlikdə duran məsələ ilə əlaqədar partiyanın rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilib.*

Qeyd edilib ki, 25 il bundan əvvəl ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşən, mütərəqqi insanların arzu və istəyi ilə yaradılan Yeni Azərbaycan Partiyası dahi şəxsiyyətin ideyalarının işığında əsl ümumxalq partiyası kimi özünü təsdiqləyib. Ötən illər müstəqil Azərbaycanın taleyində bir sıra mühüm hadisələrlə yaddaqalan olub. Azərbaycan dövlətini və onun vətəndaşlarını azad, firavan günlərə qovuşduran güclü iqtisadiyyat yaradılıb, qüdrətli ordu formalaşıb, dövlətçilik möhkəmləndirilib, təhsildə, elmdə, mədəniyyətdə islahatlar aparılıb, qeyri-neft sektoru, xüsusilə kənd təsərrüfatı yüksək inkişaf mərhələsinə qədəm qoyub, idman sahəsində uğurlu nəticələr əldə olunub.

Məruzəçi bildirib ki, 2017-ci ildə də muxtar respublika həyatının bütün sahələrində inkişaf təmin edilib, əvvəlki illərdə olduğu kimi tikinti-quruculuq, abadlaşdırma, yaşıllaşdırma işləri geniş vüsət alıb, iqtisadi inkişafa nail olunub, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Bütün bu uğurlar Azərbaycanda, eyni zamanda muxtar respublikamızda Heydər Əliyev quruculuq xəttinin ardıcıllıqla davam etdirilməsi nəticəsində əldə edilib.

Partiyanın rayon təşkilatının ilin ötən dövründəki fəaliyyətindən danışan Əmir Babayev təşkilatın xətti ilə bir sıra tədbirlər keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, cari ildə də Şərur rayonunda hərtərəfli sosial-iqtisadi inkişafın təmin olunmasında, quruculuq tədbirlərinin geniş vüsət almasında, qarşıda duran vəzifələrin yerinə yetirilməsində partiyanın üzvləri fəallıq nümayiş etdiriblər. Rayon təşkilatının 3 şura, 10 idarə heyəti yığıncağı keçirilib. Qadınlar Şurasının, Gənclər Birliyinin xətti ilə tarixi və əlamətdar günlər, bayramlar münasibətilə dəyirmi masalar, elmi-praktik konfranslar, idman yarışları, tarixi və mədəni yerlərə ekskursiyalar təşkil olunub.

Diqqətə çatdırılıb ki, hazırda təşkilatın əhatə etdiyi 87 ərazi ilk partiya təşkilatının qeydiyyatında 10 min 387 nəfər partiya üzvü vardır. Bunların 3 min 47 nəfərini, yəni 29 faizini qadınlar, 3 min 185 nəfərini, yəni 30,6 faizini gənclər təşkil edir. Doqquz ay ərzində Yeni Azərbaycan Partiyası sıralarına 84 nəfər qəbul olunub ki, bunların da 40 nəfərini qadınlar, 78 nəfərini gənclər təşkil edir. Bundan sonrakı dövrdə də gənclərlə iş diqqət mərkəzində saxlanılmalı, ona nail olunmalıdır ki, əsasən, bacarıqlı, təşəbbüskar, ictimai işlərə maraq göstərən gənclər partiyanın sıralarına qəbul edilsinlər.

Əmir Babayev qarşıda duran vəzifələrdən də danışaraq qeyd edib ki, əsas vəzifə ötən dövr ərzində müxtəlif sahələrdə qazanılan uğurları xalqa çatdırmaq, əhali arasında ideya-siyasi işi gücləndirmək, partiya üzvlərinə təşkilati işdə fəal olmağı aşılamaqdan ibarət olmalıdır. Hər bir üzv partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, prinsiplərinə əməl etməli, ictimai-siyasi proseslərdə, mədəni-kütləvi tədbirlərdə və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində daha fəal olmalıdır.

Bu il Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə əlaqədar olaraq Təşkilat Komitəsinin yaradıldığını deyən Əmir Babayev görüləcək işlərə dair Tədbirlər Planı hazırlandığını bildirib. Vurğulayıb ki, Tədbirlər Planına uyğun olaraq yığıncaqların, elmi-praktik konfransların keçirilməsi, ekskursiyaların təşkili nəzərdə tutulub. Yerlərdə, ərazi ilk partiya təşkilatlarında keçiriləcək tədbirlər rayon mərkəzində təşkil olunacaq ümumrayon tədbiri ilə yekunlaşacaqdır.

Sonra "Kapital Bank" Şərur Rayon Filialı ərazi ilk partiya təşkilatının sədri Fazil Mehdiyev, Təhsil Şöbəsi ərazi ilk partiya təşkilatının sədri Ədalət Əhmədov və başqaları məruzə ətrafında çıxış ediblər.

Şura iclasında müzakirə olunan məsələlərlə əlaqədar qərar qəbul edilib.

**Elman MƏMMƏDOV**

## Naxçıvanşünaslıq Mərkəzində növbəti açıq dərs olub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində "Qars müqaviləsi və Naxçıvanın muxtariyyət statusu" mövzusunda açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan Dövlət Texniki Kollecinin bir qrup tələbəsi iştirak edib.*



Mövzu ilə bağlı mərkəzin elmi katibi Emin Məmmədov məruzə edərək bildirib ki, Naxçıvanın ərazi taleyinin müəyyənləşdirilməsi və muxtariyyət statusunu Qars müqaviləsinə əsasən əldə etməsi tarixi həqiqətdir. Lakin bunu da xüsusilə qeyd etmək lazımdır ki, Qars müqaviləsinə gedən yol 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumdan başlanır. Həmin referendum Azərbaycan İnqilab Komitəsinin 1 dekabr və Ermənistan İnqilab Komitəsinin 26-28 dekabr 1920-ci il tarixli bəyannamələrinə əsasən Naxçıvanın sovet Ermənistanına verilməsi məsələsi qarşısında mahir diplomat Behbud ağa Şahtaxtinskinin göstərdiyi qətiyyətli fəaliyyət nəticəsində baş tutub və məhz həmin referendumda Naxçıvan əhalisinin yekdil rəyi əsasında bu diyar Ermənistanın tabeliyinə verilməkdən xilas edilib. Bundan sonra Naxçıvan həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazanıb. Bu referendum özünün əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər önəmə malik siyasi hadisədir. Əgər Naxçıvanın ərazi taleyinə dair 1921-ci ilin yanvar referendumu keçirilməsəydi, bəlkə də, Moskva və Qars müqavilələrinə ehtiyac da qalmayacaqdı. Bu, Azərbaycan diplomatiyası tarixində Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olan mərkəzi hökumətlə razılaşdırılmamış nadir və uğurlu diplomatik gediş idi.

Qeyd edilib ki, naxçıvanlıların əzmkar mübarizəsi ilə görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin siyasi gedişləri nəticəsində Moskva və Qars kimi beynəlxalq müqavilələrlə Naxçıvanın taleyi həll olunub, gələcək siyasi-hüquqi statusu müəyyənləşdirilib. Qars müqaviləsi müddətsiz imzalanıb və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Müqavilə 1922-ci ilin mart-iyun aylarında onu imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilib və həmin ilin 11 sentyabrında qüvvəyə minib. Bu müqavilə ilə muxtariyyətin əsası qoyulub, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılıb, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilib. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb.

Vurğulanıb ki, Naxçıvanın muxtariyyət statusu ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olub, qədim diyarın hərtərəfli inkişafını təmin edən sosial-iqtisadi siyasət yürüdülüb. Bu gün də bu siyasət uğurla davam etdirilir. Məhz həmin siyasətin nəticəsidir ki, bir vaxtlar Qars müqaviləsinə əsasən ərazi taleyi həll edilən Naxçıvan Muxtar Respublikasının ölkəmizin xarici siyasəti kontekstində xarici əlaqələri və diplomatiyası xeyli inkişaf etməkdədir.

Sonra tədbir iştirakçıları mərkəzlə tanış olublar.

**Nail ƏSGƏROV**

## Yeni qapalı suvarma şəbəkəsi məhsuldarlığı artıracaq

*"Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin Kəngərli rayonunun Böyükdüz kəndindəki əkin sahələrində qurulan yeni qapalı suvarma şəbəkəsində son tamamlama işləri görülür.*

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin şöbə müdiri Emil Səfərov bildirib ki, boru xətlərində baş verə biləcək deformasiyaların qarşısını almaq üçün xətt üzərində 2 ədəd siyirtmə quraşdırılıb. Ana xətt üzərində hər 100 metrdən bir diametri 200 millimetr olan plastik borularla 41 min 680 metr paylayıcı boru xətti çəkilib. Paylayıcı boru xətti üzərində sahəyə suyun verilməsini növbə ilə təmin etmək üçün 91 siyirtmə, suvarma mövsümü başa çatdıqdan sonra boru xəttindən suyun boşaldılması üçün 93 suboşaldıcı quraşdırılıb. Xətlərin üzərində hidrantlar qoyulub.

Suvarılacaq əraziyə suyun itkisiz çatdırılması və öz axını ilə paylanması üçün ərazinin relyefi nəzərə alınıb. Diametri 720 millimetr olan magistral xəttin ətrafında əkiləcək ağacların suvarılması üçün xətt üzərində diametri 50 millimetr olan 27 ədəd çıxış quraşdırılıb.

Qeyd edək ki, əkin sahəsinin ortasından keçən 1500 metr qrunt yolun yeri dəyişdirilərək 7 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılıb. Araz çayından qidalanacaq hovuzdan öz axını ilə qapalı suvarma şəbəkəsinə veriləcək su 407 hektar ərazidə itkinin və ərazilərin şoranlaşmasının qarşısını alacaq, torpaqların məhsuldarlığının artmasına səbəb olacaq.

**Xəbərlər şöbəsi**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətindən aldığımız məlumata görə, cari ilin sentyabr ayı ərzində xidmət miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində müvafiq tədbirləri davam etdirib.*

Ötən ay xidmət tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 40 nəfər əcnəbi aşkarlanıb. Onlardan 35-i barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərketmə, 5 nəfər barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 838 müraciət daxil olub. Bu müraciətlərdən 96-sı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda ölkə qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

Sentyabr ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı xidmət tərəfindən 742 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərin 198-i xidmətin sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən bölmələri tərəfindən qəbul və icra edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

## Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



***"Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov, təhsil nazirinin müavini Əli Vəliyev əlamətdar gün münasibətilə çağırışçıları və onların valideynlərini təbrik edərək bildiriblər ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə həyata keçirilən tədbirlər əsgərlərimizin mənəvi-psixoloji hazırlığına, onların döyüş ruhunun yüksəldilməsinə imkan verib. Eyni zamanda ordumuzun hərtərəfli hazırlığı tezliklə torpaqlarımızın işğaldan azad olunmasına böyük inam yaradır.

Valideyn Səfər Tağıyev övladının hərbi xidmətə yola salınmasından qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb. Çağırışçılar adından çıxış edən Mətləb Mustafayev Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişafı Silahlı Qüvvələrimizin istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir.

Xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

✍ Səbuhi HƏSƏNOV

## İstehsalatda bədbəxt hadisələrdən sığorta hər bir işçi üçün vacibdir

***Gözlənilməz hadisələrdən insana dəymiş zərərlərin əvəzinin ödənilməsini təmin edən sığorta sosial-iqtisadi inkişafın mühüm göstəricilərindən biridir. Bədbəxt hadisələrin daha tez-tez rast gələ bilinəcəyi yerlər arasında istehsalat obyektləri də vardır. Belə ki, müxtəlif işlər zamanı istehsalatda təhlükəsizliyin təmin edilməsi və işçilərin peşə əmək qabiliyyətinin qorunması tədbirləri gündən-günə daha da təkmilləşir, lakin baş verə biləcək gözlənilməz bədbəxt hadisələr qaçınılmaz olduqda bu, həmin insanların əmək qabiliyyətinin itirilməsinə səbəb ola bilir. Belə hadisələrdən zərərçəkmiş insanın özünün və ailəsinin sosial müdafiəsinə xidmət edən icbari sığorta isə mühüm ictimai əhəmiyyət daşıyır. Əgər vaxtında bağlanılmış sığorta müqaviləsi varsa, zərərçəkmiş insanın həyatına, sağlamlığına və əmək qabiliyyətinə dəyən zərərlərin əvəzi sığorta orqanları tərəfindən ödənilir.***

Dövlətimiz tərəfindən vətəndaşların həyatının və sağlamlığının qorunması üçün mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri də istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqidir. Bu sığortanın mahiyyəti insanlarımızın həyatı və sağlamlığına verilən dəyərlə ifadə olunur. Buna görə də həmin sığorta növünə hər bir işçinin gələcəyinin zəmanəti kimi baxmaq olar.

İcbari sığorta növü ölkəmizdə 2010-cu il 11 may tarixdə qəbul edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılır. Həyata keçirilən sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığorta olunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutur. İş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatında bu ödənişlərin mühüm əhəmiyyəti vardır.

Bu sığorta növündə sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin hüquq və vəzifələri qanunla müəyyənləşdirilmişdir. Belə ki, işəgötürən kimi hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında çalışanlar, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bundan əlavə, həmin qanuna görə istehsalat təcrübəsi keçən tələbə və şagirdlər, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

Bu sığorta növündə zərərçəkənlərə verilən ödənişlər isə icbari sığorta müqaviləsi bağlanılmış şəxsin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları zamanı həyata keçirilir. Bağlanmış müqaviləyə əsasən sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə müəyyənləşdirilmiş zərər məbləği həddində sığorta ödənişi verilir.

Ancaq qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı sığortaçı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olması, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi və ya ölüm halı baş verdikdə sığortaolunan və yaxud faydalanan şəxslər sığorta ödənişi almaqla maddi dəstək əldə edirlər. Bu zaman faydalanan şəxslər kimi istehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş övladları və digər faydalanan insanlar nəzərdə tutulur.

Sığortahaqqına gəldikdə, bu, xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. İşəgötürən tərəfindən ödənilən sığortahaqqının tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən edilmiş peşə riskinin dərəcəsindən və sığortaolunanların kateqoriyalarından asılı olaraq 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Hər bir işçi üçün iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən, peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsidir. İşəgötürən sahibkar bu vəzifələri yerinə yetirməklə öz işçilərinin sosial müdafiəsini də təmin etmiş olur. Ona görə də bu sığortanın aparılması göstərilən hallarda əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maraq və mənafelərinin müdafiəsinə xidmət edir.

✍ Əli CABBAROV

***Qış insanları həmişə ciddi sınaqlara çəkir. Bu sınaqlardan uğurla çıxmaq üçün tədbirli adamlar hər il əvvəlcədən payız-qış mövsümünə ciddi hazırlaşırlar. Artıq indidən qarşıdakı qışın da soyuq keçəcəyi ilə bağlı proqnozlar verilir.***

## Sədərəkdə qışa hazırlıq diqqət mərkəzindədir



Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Samil Kazımov bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən növbəti müşavirədə yeni mövsümə hazırlıqla bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. Rayon İcra Hakimiyyətində keçirilən yığıncaqda bu məsələ geniş müzakirə olunub və tədbirlər planı təsdiqlənərək bütün aidiyyəti qurumlara göndərilib. Tədbirlər planının icra vəziyyəti ciddi nəzarətdə saxlanılır. İdarə və müəssisələrin, əhalinin qış mövsümündəki problemlərinin operativ həlli üçün xüsusi komissiya fəaliyyət göstərir. Komissiya meydana çıxan çətinlikləri dərhal həll etməyə çalışır. İndi haqlı olaraq əhalidə belə bir ümumi fikir formalaşıb ki, yaypayız aylarında rayonun əksər idarə və müəssisələri qışa daha yaxşı hazırlaşdıqları üçün, necə deyərlər, "qışın oğlan çağında" belə, ciddi çətinliklər meydana çıxmır.

Qeyd edək ki, rayon İcra Hakimiyyətinə getməmişdən əvvəl bölgənin sadə, sıravi sakinləri ilə görüşmüş, onların payız-qış mövsümünə hazırlıqla bağlı fikirlərini öyrənmişdim. İstər Sədərək və Qaraağac kəndlərində, istərsə də rayon mərkəzi Heydərabad qəsəbəsində adamlardan payız-qış mövsümü ilə bağlı qayğı və çətinlikləri soruşdum. Dedilər ki, son illər rayonda qışa yaydan ciddi hazırlıq görülür, odur ki, mənzillərdə su, elektrik enerjisi, təbii qaz sarıdan heç bir problem yaranmır.

Payız-qış mövsümünə hazırlıqla bağlı aidiyyəti təşkilatlara da baş çəkdik. İlk növbədə, elektrik təsərrüfatında görülən işlərlə tanış olduq. Məlumdur ki, payız-qış aylarında küləkli, yağışlı, qarlı-şaxtalı havalarda elektrik dirəklərinin aşması, naqillərin qırılması, transformatorların, yağ açarlarının sıradan çıxması halları daha çox baş verir. Cari ilin ötən dövründə müxtəlif gücdə yarımstansiyalar quraşdırılıb, bəzi yerlərdə hava xətləri təzələnib. Bir çox ünvanlarda hava xətlərindən evlərin girişlərinədək yeni elektrik naqilləri çəkilib. Nasaz transformator yarımstansiyaları və hava xətləri təmir olunub, elektrik naqillərinə maneçilik törədən ağaclar təmizlənib. Həmçinin qış aylarında yarana biləcək hər hansı nasazlığın aradan qaldırılması üçün lazımi mal-material ehtiyatı yaradılıb.

Sədərək Rayon Qaz İstismarı İdarəsi tərəfindən qaz xətlərinə baxış keçirilərək bütün sızmalar aradan qaldırılıb, qaz kəmərlərini qorumaq üçün gilizlər qoyulub. Bütün bu tədbirlər payız-qış mövsümündə hər hansı bir problemin yaranmasının qarşısının alınmasına xidmət edir.

Rayon Yol İstismarı Sahəsinin maşın və mexanizmləri işlək vəziyyətə gətirilib, körpülərə və buz bağlamaq ehtimalı olan yollara səpmək üçün qum ehtiyatı yaradılıb. İşçilər isti geyimlə təmin olunublar.

Rayonda əhalinin dayanıqlı rabitə ilə təmin edilməsi, rabitə xidmətinin yüksəldilməsi məsələsi də diqqətdə saxlanılır. Bunun üçün dizel generatoruna baxış keçirilib, nasazlıq aradan qaldırılıb, kabel quyuları açılıb yoxlanılıb, normativə uyğun hala gətirilib. İstismar müddəti keçmiş dirəklər yeniləri ilə əvəz edilib, köhnə kabellər təzələnib. Rabitə İdarəsi tərəfindən telefon xətləri çəkilib. Rabitəçilərə yeni iş alətləri verilib, onlar xüsusi geyimlə təmin olunublar.

Rayon əhalisi payız-qış mövsümündə içməli su sarıdan da korluq çəkməyəcək.

Ümumtəhsil məktəblərində istilik sistemi müasir tələblərə uyğun qurulub. Tədris müəssisələrində bina və qurğuların elektrik şəbəkəsində olan nasazlıqlar aradan qaldırılıb, cihaz və avadanlıqların təhlükəsiz istismarının təmin edilməsi üçün müvafiq tədbirlər görülüb. Təhsil ocaqlarında mövsümə hazırlıq məqsədilə görülən işlər, deməyə əsas verir ki, məktəblərdə qışın ən qarlı-şaxtalı günlərində belə, tədris prosesi dayanmayacaq.

Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Kəmalə İbrahimova ilə də həmsöhbət olduq. Onun dediklərindən:

– Bir anlığa təsəvvür edin ki, qış aylarında səhiyyə ocaqlarında lazımi şərait olmasa, bizə müraciət edən əhali, xüsusilə stasionarda müalicə olunanlar nə qədər çətinliklərlə üzləşə bilərlər. Bunu nəzərə alaraq kollektivimiz 2017-2018-ci illərin payız-qış mövsümünə ciddi hazırlıq işləri görüb.

Öyrəndik ki, Mərkəzi Xəstəxananın bütün şöbələrində mövsümə hazırlıqla bağlı cari təmir işləri aparılıb. Mərkəzi Xəstəxananın əksər şöbələrində və kabinələrində elektrik cərəyanı ilə işləyən xüsusi qurğular mövsümə hazırlıq üçün yoxlama sınağından keçirilib.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin balansında Heydərabad qəsəbəsində, Sədərək və Qaraağac kəndlərində fəaliyyət göstərən klub və kitabxanalar mövcuddur. Təbii ki, qış aylarında bu müəssisələrdə lazımi şərait yaradılmasa, əhaliyə yüksək mədəni xidmətdən söhbət gedə bilməz. Odur ki, qış mövsümünə hazırlıq kampaniyası çərçivəsində şöbənin kollektivi çalışır ki, bu sahədə öz üzərinə düşən vəzifələri vaxtında yerinə yetirsin, qış aylarında əhalinin haqlı irad və gileyləri ilə üzləşməsin.

Artıq qış fəslinin gəlməsinə az qalıb. Sərhəd bölgəsi Sədərək rayonunda bu, özünü daha qabarıq göstərir. Havalar gün ərzində bir neçə dəfə dəyişir. Bəzən buludların arxasından boylanan Günəş iliq şüalarını ətrafa səpələyir.

Sədərək əhalisi nikbindir. Onlar inanırlar ki, növbəti payız-qış mövsümündə rayonda heç bir problemlə üzləşməyəcəklər.

✍ Səbuhi HÜSEYNOV

Təhsil millətin gələcəyidir

# Məqsəd səhiyyəmiz üçün yüksəkixtisaslı kadrlar hazırlamaqdır

## *Naxçıvan Tibb Kollecində bunun üçün hər cür şərait var*

***Son illər muxtar respublikamızda baş verən sürətli tərəqqi bütün sahələrin, o cümlədən təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına səbəb olub. Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni məktəb binalarının və infrastruktur obyektlərinin yaradılması istiqamətində onilliklərə bərabər işlər görülüb, irimiqyaslı layihələr reallaşdırılıb. Müasir tələblər səviyyəsində inşa olunan binalar isə həmin ünvanlarda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların böyük uğurlar qazanmasına yeni üfüqlər açıb.***











Dövlət qayğısı ilə əhatə olunan belə ünvanlardan biri də Naxçıvan Tibb Kollecidir. Əvvəlcə bu təhsil ocağının fəaliyyət yoluna nəzər salaq. Kollec 1931-ci ildə Tibb Texnikumu kimi fəaliyyətə başlayıb. 1935-ci ildə texnikumun adı dəyişdirilərək "Tibb Bacısı Məktəbi" adlandırılıb. Lakin uzun illər məktəbin normal fəaliyyət göstərməsi üçün lazımi şərait olmayıb. Ancaq son illərdə digər orta ixtisas təhsili müəssisələri ilə bərabər, bu məktəbə də dövlətin diqqət və qayğısından xeyli pay düşüb. 2001-ci il 17 may tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Naxçıvan Tibb Məktəbinin 70 illik yubileyinin keçirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması haqqında" Sərəncam imzalayıb.

2008-ci ildə məktəbin binası əsaslı şəkildə təmir olunaraq ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə müəllim və tələbələrin istifadəsinə verilib.

Kollec haqqında geniş məlumat verən bu təhsil müəssisəsinin direktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi Sona Məmmədova bildirdi ki, muxtar respublikada bütün sahələr kimi, orta ixtisas təhsilinin inkişafına da xüsusi önəm verilir. Naxçıvan Tibb Kolleci də belə müəssisələrdən biridir. Burada tədrisin keyfiyyətini artırmaq üçün fənn kabinələri, laboratoriyalar yaradılıb, onların maddi-texniki bazası möhkəmləndirilib.

Sona Məmmədova onu da qeyd etdi ki, 2010-cu ildən Naxçıvan Tibb Kolleci kimi fəaliyyət göstərən təhsil müəssisəsi yaradıldığı dövrdə yalnız feldşer ixtisaslı tibb işçisi hazırlayıb. Bir qədər sonra burada mamalıq və tibb bacısı ixtisasları üzrə də fakültələr təşkil olunub. 2011-2012-ci tədris ilində kollecdə ortopedik stomatologiya, 2016-2017-ci tədris ilində hərbi feldşer, idman və müalicə masajı, laboratoriya diaqnostikası ixtisasları açılıb. Hazırda kollec öz fəaliyyətini 8 ixtisasla davam etdirir.

Kollecin direktoru dedi ki, burada mikrobiologiya, farmakologiya, kimya laboratoriyaları var. Laboratoriyalar müasir avadanlıqlarla təchiz olunub. Fənlərin tədrisində həmin avadanlıqlardan istifadə edilməklə laborator müayinələr və reaksiyaların gedişi əyani surətdə tələbələrə göstərilir.

Təcrübə dərslərinin keçilməsi üçün anatomiya, pediatriya, terapiya, mamalıq, cərrahiyyə və hərbi kabinələrin yaradıldığı kollecdə tədrisin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılıb. Həmin kabinələr müasir avadanlıqlarla təchiz olunub. Kabinələrdə keçilən mövzuların plakatlar, mulyajlar və tədrisin əyani vəsaitlər vasitəsilə tələbələrə öyrədilməsi üçün lazım olan hər bir avadanlıq var. Hərbi hazırlıq kabinəsində isə fövqəladə hallar və təbii fəlakətlər zamanı istifadə olunan avadanlıqlar yerləşdirilib.

Kollecdə Heydər Əliyev lektoriyasının fəaliyyəti diqqəti cəlb edir. Lektoriyada ulu öndərin həyat və yaradıcılığının tələbələrə dərindən öyrədilməsi üçün bütün imkanlardan səmərəli istifadə olunur.

Tədris ocağının kitabxanası fonddan və oxu zalından ibarətdir. Kitab fondu mütəmadi olaraq müasir tibbi və bədii ədəbiyyatlarla təchiz olunur.

Bununla yanaşı, kollecdə 100 yerlik iclas zalı, bufet, 29 sinif-auditoriya, fiziki tərbiyə dərsləri üçün geniş idman zalı var.

2017-2018-ci tədris ilində kollecdə 638 tələbə təhsil alır. Direktorun sözlərinə görə, Naxçıvan Tibb Kolleci təkcə muxtar respublika üçün deyil, ölkənin müxtəlif bölgələri üçün də tibbi kadrlar hazırlayır. Hazırda kollecdə Bakı, Sumqayıt, Lənkəran, Masallı, Zaqatala, Xaçmaz və digər rayonlardan olan gənclər təhsil alırlar.

Öyrəndik ki, kollecdə 2010-cu ildən təkmilləşdirmə kursları təşkil olunur. Bu kurslarda Naxçıvan şəhər, Ordubad, Culfa, Şərur, Sədərək, Şahbuz, Kəngərli və Babək rayonlarında fəaliyyət göstərən tibb işçiləri dinləyici kimi iştirak edir, tibbin müasir yenilikləri ilə tanış olurlar. Kursun sonunda isə imtahanda müvəffəqiyyət qazanan dinləyicilərə sertifikatlar verilir. Bununla yanaşı, təkmilləşdirmə kurslarında orta tibb təhsili almış, lakin uzun müddət tibb fəaliyyəti ilə məşğul olmayan müdavimlərin də təkmilləşməsi aparılır. Təkmilləşdirmə kurslarının müdavimləri Naxçıvan Tibb Kolleci ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzində, Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında, Doğum Mərkəzində təcrübə kursları keçirlər.

Kollecin direktoru onu da qeyd etdi ki, tələbələr tətil günlərində Türkiyə Respublikasının xəstəxanalarında təcrübə keçir və mütəxəssislərdən peşə incəliklərini öyrənirlər. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Tibb Kollecindən 2015-2016-cı tədris ilində 20 tələbə və 4 həkimdən ibarət heyət Ərzurum şəhərinin Atatürk Universitetinin Xəstəxanasına, ötən tədris ilində isə 10 tələbə və 2 həkimdən ibarət heyət Ankara şəhərində fəaliyyət göstərən Halidə Edip Məsləki və Texniki Anadolu Liseyində təcrübədə olub, sertifikatlar alıblar.

Kollecin direktoru onu da vurğuladı ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən Naxçıvan Tibb Kollecinin tələbələri Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarındakı xəstəxanalarda təcrübə keçməyə başlayıblar. Bununla yanaşı, tədris planında nəzərdə tutulan istehsalat və diplomönü təcrübələr də xəstəxanalarda keçirilir. Bu zaman qruplar üzrə bölgülər aparılaraq tələbələr 3 ay müddətində təcrübəli, peşəkar həkimlər tərəfindən nəzəri biliklərini təcrübə vasitəsilə artırırlar.

Kollecin müəllim və tələbə kollektivi muxtar respublikanın ictimai işlərində yaxından və fəal iştirak edir. Belə ki, təhsil ocağının tələbələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Hava və Ekstremal İdman Növləri və Yüngül Atletika federasiyalarının, Rəssamlar Birliyinin keçirdikləri tədbirlərdə iştirak edirlər. Bu baxımdan ötən dərs ilində tələbələrin qazandıqları uğurlar yaddaqalan olub. Kollecin tələbələri Eldar İbrahimov, Vasif Alızarlı, Aysun Rzayeva, Aytac Mərdanlı, Zabit Süleymanov və başqaları adıçəkilən təşkilatların tədbirlərində qalib yerlərə layiq görülüb, diplom və fəxri fərmanlar alıb, hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, orta ixtisas təhsili ölkənin təhsil sisteminin tərkib hissəsidir. Bu təhsil pilləsi həm də ümumi orta təhsilin həyata keçirilməsi yollarından biridir. Söhbətimizdən belə qənaətə gəldik ki, Naxçıvan Tibb Kollecinin kollektivi ixtisaslı tibbi kadrlar hazırladığını unutmur, qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetirmək üçün yaradılan şəraitdən səmərəli istifadə edir.

Kollektiv yeni dərs ilinə uğurla başlayıb. İnanırıq ki, 2017-2018-ci tədris ili də kollecin tarixinə uğurlu illərdən biri kimi yazılacaq.

✍ **Gülcamal TAHİROVA**

# Beynəlxalq konqresdə Qarabağlar türbəsinə həsr olunmuş məruzə təqdim edilib



***AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Türkiyənin Muğla Sıtkı Koçman Universitetində keçirilən "Turizm və mədəni miras" adlı beynəlxalq konqresdə iştirak edib.***

Dünyanın bir sıra ölkələrindən olan elm xadimlərinin və tədqiqatçıların qatıldığı tədbirdə türk xalqlarına aid sənət, ədəbiyyat, memarlıq, dil və adət-ənənələrlə bağlı müxtəlif mövzularda məruzələr dinlənilib.

Türk dünyasının zəngin mədəniyyətini tanıtmaq, nəsildən-nəslə ötürmək və qorumaq məqsədi daşıyan konqresin bölmə iclaslarından birinə sədrlik edən akademik İsmayıl Hacıyev "Naxçıvan turizmi və mədəniyyət abidələri: Qarabağlar türbəsi" mövzusunda məruzəsini təqdim edib. Alim Naxçıvan Muxtar Respublikasında bütün sahələrlə yanaşı, bu bölgənin tarixinin öyrənilməsi, qaranlıq səhifələrin işıqlandırılması istiqamətində mühüm işlərin görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, muxtar respublikada qədim yaşayış yerləri, tarixi-memarlıq abidələri qeydə alınır, mövcud olan abidələrdə tədqiqatlar aparılır, aşkar olunan abidələr tədqiq edilir.

Günümüzə gəlib çatan abidələr içərisində türbələrin özünəməxsus yeri olduğunu deyən İsmayıl Hacıyev bildirib ki, Naxçıvanın qədim memarlıq məktəbinin qiymətli abidələrindən biri də Qarabağlar Türbə Kompleksidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Qarabağlar Türbə Kompleksinin bərpa və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən dünya əhəmiyyətli abidə olan türbə bu gün elmi və tarixi əsaslarla bərpa edilir. Qarabağlar Türbə Kompleksi regiona gələn turistlərin böyük marağına səbəb olur.

Məruzə konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***Son illər əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.***

# Məktəblərdə payız mövsümünün dərin tibbi müayinələrinə başlanılıb

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq hər il yaz və payız mövsümlərində şagirdlər arasında profilaktika xarakteri daşıyan tibbi yoxlamalar aparılır. Bu tədbirlər "Uşaqların icbari dispanserizasiyası haqqında" 2013-cü il 5 mart tarixli Azərbaycan Respublikası Qanununun və ölkə Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq həyata keçirilir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən bu il payız mövsümündə Naxçıvan şəhərinin tam orta məktəblərindəki şagirdlər dərin tibbi müayinələrə cəlb ediləcəklər. Məktəblərdə aparılan müayinələrdən sonra bu tədbir Naxçıvan şəhərində yerləşən məktəbəqədər müəssisələrdə təşkil ediləcək. Bunun üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri xəstəxananın Poliklinika şöbəsinə dəvət olunub, onlara lazımi tövsiyələr verilib. Şagirdlər əvvəlcədən məktəb həkimləri tərəfindən müayinələrdən keçirilərək qruplaşdırılıb.

Dərin tibbi müayinələr aparmaq üçün oftalmoloq, stomatoloq, ortoped, ftiziatr, LOR, endokrinoloq, nevropatoloq, pediatr və digər ixtisaslı həkimlərdən ibarət briqada təşkil edilib. İlk müayinələr Naxçıvan şəhərinin 1 və 2 nömrəli tam orta məktəblərində aparılıb. Şagirdlər ixtisas həkimi tərəfindən yoxlanılıb. Oftalmoloji müayinələr nəticəsində şagirdlər arasında ən çox miopiya (yaxındangörmə), stomatoloji müayinələrdə ortodentik, digər ixtisasyönümlü müayinələrdə bəzi şagirdlərdə nitq qüsurları, konstitusional piylənmə, xroniki tonzillit, adenoidlər, burun çəpərində əyriliklər, revmatizm xəstəlikləri aşkar olunub.

Əvvəlki illərdə olduğu kimi, həmin şagirdlər dispanser qeydiyyatına götürülərək Mərkəzi Uşaq Xəstəxanasına dəvət olunur, daha ətraflı və dərin müayinədən keçirilir, xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil edilir.

Müayinələr oktyabrın 31-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Axtarışlar, tapıntılar*

# Unudulmuş ədibin sənət dünyası

***Naxçıvan ədəbi mühitinin yetirdiyi istedadlı sənətkarlardan olan Ələkbər Qərib Naxçıvanlının zəngin, çoxşaxəli yaradıcılığı son vaxtlaradək öyrənilməmiş, elmi fikrin diqqətindən kənarda qalmışdır. Unudulmuş ədibin ədəbi irsinin sorağı ilə Azərbaycan və Gürcüstan arxivlərində, kitabxanalarında, müxtəlif mətbuat nümunələrində apardığımız uzunmüddətli araşdırmalar nəticəsində onun həyat və yaradıcılığına aid çoxsaylı materiallar əldə etmişik. Yazıçının əsərlərini və onun haqqında monoqrafiyanı çapa hazırlayırıq.***

Ələkbər Qərib Naxçıvanlı (Abbasov Ələkbər Tağı oğlu) 1910-30-cu illərdə ədəbi prosesdə yaxından iştirak edən, nəsr, publisistika, ədəbi tənqid və bədii tərcümə sahəsindəki səmərəli, məhsuldar fəaliyyəti ilə diqqəti çəkən istedadlı sənətkarlarımızdan biridir. Onun "Ələkbər Qərib", "Əliəkbər Naxçıvanlı", "Ələkbər Abbasov", "Ə.Qərib" və digər imzalarla çap etdirdiyi roman, povest və hekayələr, publisistik və ədəbi-tənqidi məqalələr, müxtəlif xalqların ədəbiyyatından etdiyi tərcümələr ciddi yaradıcılıq axtarışlarının məhsuludur.

Ələkbər Abbasov Naxçıvanda dünyaya göz açmış, ilk təhsilini əsası məşhur maarifçi M.T.Sidqi tərəfindən 1894-cü ildə qoyulmuş "Məktəbi-tərbiyə"də almışdır. 1909-cu ildə Qori Müəllimlər Seminariyasına daxil olan Ələkbər 1913-cü ildə həmin təhsil ocağını bitirmiş, maarif, mətbuat, ədəbiyyat, mədəniyyət sahəsində səmərəli çalışmaqla yanaşı, ictimai işlərdə də fəallıq göstərmişdir. Birinci Dünya müharibəsi illərində Osmanlı türklərinə kömək üçün Xosrov bəy Sultanovun rəhbərliyi altında fəaliyyət göstərən xeyriyyə cəmiyyətinin xətti ilə Əhməd Cavad, Əli Səbri kimi ziyalılarla bir sırada Ələkbər Qərib də Batumi,Trabzon, Qars, Ərdəhan və digər yerlərdə həyata keçirilən tədbirlərin əsas təşkilatçılarından olmuşdur.

1918-1920-ci illərdə, əsasən, Tiflisdə yaşayan Ə.Naxçıvanlı pedaqoji sahədə çalışmaqla yanaşı, orada nəşr olunan "Gələcək", "Gənclər yurdu" kimi mətbuat orqanlarında müxtəlif səpkili yazılarla çıxış etmişdir. 1922-1927-ci illərdə Tiflisdə Azərbaycan dilində çıxan "Yeni fikir" qəzetində çalışan Ə.Qərib həmin şəhərdə yazıçı Böyükağa Talıblının rəhbərliyi altında fəaliyyət göstərən ədəbiyyat dərnəyinin işində Eynəli bəy Sultanov, Rzaqulu Nəcəfov və digər ziyalılarla birlikdə yaxından iştirak etmişdir. Tiflisdə 1926-cı ildə nəşrə başlayan "Dan yıldızı" jurnalının fəaliyyətində də sənətkarın ciddi xidmətləri olmuşdur. Jurnalın ilk yeddi sayı məhz onun məsul redaktorluğu ilə çıxmışdır. Sonra isə görkəmli publisistin də daxil olduğu "heyəti-təhririyyə" (redaksiya heyəti) yaradılmışdır. 1920-ci illərin ortalarında Tiflisdə Mirzə Davud Hüseynovun sədrliyi ilə fəaliyyət göstərən "Yeni əlifba dostları cəmiyyəti"nin aparıcı üzvləri sırasında onun da adı çəkilməkdədir. O, 1927-ci ildən etibarən fəaliyyətini Bakıda davam etdirmiş, daha çox nəşriyyat sahəsində çalışmışdır.

Ümumiyyətlə, Ələkbər Qərib 1910-1930-cu illərdə müxtəlif mətbuat orqanlarında, xüsusən Bakıda və Tiflisdə nəşr olunan "İşıq", "Məktəb", "İqbal", "Gələcək", "Gənclər yurdu", "Yeni fikir", "Dan yıldızı" kimi qəzet və jurnallarda çoxsaylı publisistik və ədəbi-tənqidi məqalələr dərc etdirmişdir. 1920-ci illərdə o, Bakıda çıxan rəsmi dövlət qəzeti "Kommunist"in Tiflis şəhərindəki müxbiri kimi də səmərəli publisistik fəaliyyət göstərmişdir. Məqalələrində Ələkbər Qərib Vətən və xalq taleyi, beynəlxalq aləmdə baş verən hadisələr, sosial-mədəni tərəqqi, təlim-tərbiyə, qadın azadlığı kimi mövzulara həssas münasibət göstərmişdir. Onun məqalələrinin bir qismi ədəbi-tənqidi xarakterdədir. Bu kimi məqalələrində o, ədəbi-mədəni mühitin aktual problemlərinə toxunmuş, orijinal fikirlər söyləmişdir. Onun klassik irsə münasibət, sənət və müasirlik, tənqidçi və ədəbi proses, bədii əsərlərin dil və üslub xüsusiyyətləri, incəsənətin inkişaf meyilləri barədəki təhlil və dəyərləndirmələri bu gün də əhəmiyyətini saxlamaqdadır.

Ələkbər Qərib 1910-1930-cu illərin ən məhsuldar və istedadlı tərcüməçilərindən olmuşdur. O hələ 1912-ci ildə rus yazıçısı N.M.Karamzinin "Bədbəxt Liza" əsərini qısa ixtisarla dilimizə çevirmiş, həmin tərcümə Bakıda "Məktəb" jurnalının vəsaiti ilə ayrıca kitab kimi çap olunmuşdur. 1920-1930-cu illərdə onun bir çox tərcümələr etməsi faktları bəllidir (N.Lyaşko "Domna ocağı", M.Y.Lermontov "Zəmanəmizin qəhrəmanı" və sair). Tərcümələri həmin illərdə ədəbiyyatşünaslar Məmməd Arif, Mikayıl Rəfili və digərləri tərəfindən yüksək qiymətləndirilmişdir. İstedadlı mütərcim o zaman bir sıra elmi-kütləvi, ictimai-siyasi əsərləri, rəsmi materialları da dilimizə çevirmişdir. 1927-1938-ci illərdə E.Zolya, C.London, A.Barbüs, A. S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqol, İ.S.Turgenev, A.P.Çexov, M.Qorki və digər dünya klassiklərinin müxtəlif əsərlərinin dilimizə tərcüməsinin "Azərnəşr" tərəfindən məhz Ələkbər Qəribin redaktorluğu ilə çap edilməsi də onun tərcümə sahəsində kamil mütəxəssis olmasından soraq verir. Görkəmli ziyalının o dövrdə lüğətçiliklə bağlı işlərini, rusca-azərbaycanca lüğətlərin hazırlanmasında fəal iştirakını da xatırlatmaq yerinə düşər.

Ələkbər Qərib Naxçıvanlı bədii yaradıcılığa hələ Qori Müəllimlər Seminariyasında təhsil alarkən başlamışdır. Bakıda çıxan "İşıq" adlı mətbuat orqanının 1911-ci ildəki 31, 32, 33 və 34-cü, 1912-ci ildəki 2-ci sayında, yəni 5 sayda Ələkbər Naxçıvanlının "Zavallı Leyla xala" hekayəsi verilib. Uşaqların kimsəsiz Leyla xalaya yardımını təsirli şəkildə canlandıran müəllif humanizmi, xeyirxahlığı təbliğ edir, oxucuları da təmizqəlbli, insaflı olmağa səsləyirdi. Hekayədə yazıçının yaratdığı dolğun peyzajlar, ədəbi müstəviyə gətirdiyi etnoqrafik detallar, təsvir etdiyi adət-ənənələr koloriti daha da qüvvətləndirmişdir.

Yazıçının "Bacı və qardaş" hekayəsi isə Bakıda çıxan "Məktəb" jurnalının 1913-cü ildəki 7-ci sayında "Əliəkbər Naxçıvanlı" imzasıyla dərc olunmuşdur. Gənc müəllifin uşaq psixologiyasına və dünyagörüşünə yaxından bələdliyi duyulur. Hekayədə bir tərəfdən uşaq məişətindən maraqlı səhnə canlandırılmış, digər tərəfdən də sağlam həyat tərzi üçün zəruri olan təmizkarlıq, səliqəli olmaq, vaxtında qida qəbul etmək kimi məsələlər bədii şəkildə ifadə olunmuşdur.

1914-cü ildə Bakıda çıxmış "Haqq divanı" adlı kitabda isə müəllifin üç hekayəsi verilmişdir: "Haqq divanı", "Faciə", "Uşaq divanı".

İlk hekayədə xanın nökəri Firidunun mənəvi aləmi yığcam süjet əsasında məharətlə açılmışdır. Əsərin sonluğu onun insani ləyaqətinə Tanrı mükafatı, Allah-Taalanın ədalətin tərəfində olması kimi mənalanır. Əsərdəki lirizm və psixologizm, oxunaqlı təhkiyə, maraqlı süjet gənc yazıçının ədəbi istedadından soraq verir. "Faciə" hekayəsi birinci şəxsin dilindən nəql olunur. Burada Mikayıl ilə Rəxşəndənin nakam məhəbbəti təsirli bədii boyalarla qələmə alınmışdır. Müəllif bir psixoloq kimi Mikayılın mənəvi aləmini, yaşadığı sarsıntıları, keçirdiyi iztirabları böyük həssaslıqla canlandıra bilmişdir.

"Uşaq divanı" hekayəsində isə hadisələr xəlifə Harun Ər-Rəşid zamanında baş verir. Burada bir tərəfdən, öz kamalı ilə hətta böyüklərə yol göstərə bilən uşağın qabiliyyəti önə çəkilmiş, digər tərəfdən isə həqiqətin gec-tez qalib gələcəyinə inam hissi ifadə olunmuş, təmizqəlbli Qasımın sərvətini mənimsəmək istəyən acgöz tacir kimi var-dövlət naminə mənəvi dəyərləri unudanların axırda öz cəzalarına çatacağı ideyası bədii ifadəsini tapmışdır.

Yazıçının 1918-ci ildə Tiflisdə "Gələcək" qəzetində dərc etdirdiyi "Tamahkarlığın nəticəsi" adlı hekayəsində süjet gözü görməyən kişinin xəlifə Harun Ər-Rəşidə danışdığı həyat tarixçəsi üzərində qurulub. Bu vasitə ilə müəllif tamahkar tacirin faciəli aqibətini, sərvət hərisliyinin gözlərini itirməsinə səbəb olduğunu əks etdirmiş, oxucuları mənəvi kamilliyə çağırmışdır.

Ümumiyyətlə, Ələkbər Naxçıvanlının 1920-ci ilə qədərki hekayələri ideya-bədii mükəmməlliyi, aydın məzmunu, dolğun sənətkar işi ilə diqqəti çəkir.

Yazıçının 1912-ci ildə yazdığı "Qəlbimin sultanı" povesti ədəbiyyatımızda lirik-psixoloji nəsrin dəyərli nümunələrindən sayıla bilər. Əsərdə azərbaycanlı tələbə oğlanla onun sevdiyi qız arasındakı saf məhəbbət lirik boyalarla canlandırılmış, hadisəçilikdən daha çox obrazların hissi-mənəvi yaşantıları, qəlb təbəddülatları diqqət mərkəzinə çəkilmişdir. Müəllif yığcam bir süjetin imkanları daxilində əsas surətlərin bitkin xarakterlərini təqdim etməyi bacarmışdır. Yazıçı gənc tələbənin timsalında təmizqəlbli, pak niyyətli, yüksək əxlaqa və mənəviyyata malik azərbaycanlı oğlanın dolğun obrazını yaratmışdır. O, gənc qızın zahirən gözəl olması ilə yanaşı, onun nəcib mənəvi keyfiyyətlərindən, ləyaqətindən, əhatəli bilik dairəsindən də söz açmışdır. Onun öz sevgilisinə dediyi aşağıdakı sözlər də əsl insani dəyərlərin hər şeydən üstün olduğunu mənalandırır: "Sənə daha bircə mühüm vəsiyyətim var. Gələcək ömründə fəqət "İnsan" ol! Bu sözün həqiqi mənasilə və yaqin bil ki, bircə həqiqi insaniyyət sahibi həm bu dünyada, həm axirətdə füyuzati-ilahiyyəyə malik ola bilər". Göründüyü kimi, Ələkbər Qərib burada ləyaqətli insan olmaq amalını başlıca qayə kimi önə çəkmişdir və əsərin əsas məziyyəti, kredosu da bununla səciyyələnir. Povest məhəbbət mövzusu fonunda kamil insan konsepsiyasını dolğun şəkildə əks etdirir.

Ələkbər Naxçıvanlı sovet dövründə də bir sıra maraqlı bədii nümunələr qələmə almışdır. Bu baxımdan onun "Əfi ilan" adlı irihəcmli hekayəsi xüsusilə diqqəti çəkir. Həmin əsər Tiflisdə çıxan "Dan yıldızı" jurnalının 1926-cı ildəki 1-ci və 2-ci saylarında oxuculara çatdırılmışdır. "Əfi ilan" bir sıra xüsusiyyətlərinə (həcminə, obrazlar sisteminə, hadisələrin əhatəsinə, çoxplanlılığına və sair) görə hətta janrın hüdudlarını bir qədər aşaraq müəyyən mənada povestə də yaxınlaşır. Bu əsər özünün ictimai-siyasi məzmunu ilə də diqqətəlayiqdir. Sovet hakimiyyəti ərəfəsində və bolşevik inqilabının ilk illərində baş verən mürəkkəb hadisələrə aydın, bəzək-düzəksiz münasibət ilk baxışdan oxucunun diqqətini çəkir. "Əfi ilan" hekayəsi yazıçının nəsrinin 1920-ci illərdə tematika və problematika baxımından yeni mərhələyə qədəm qoyduğunu, sənətkarlıq cəhətindən daha da təkmilləşdiyini aşkar şəkildə nümayiş etdirir. Yazıçı 1918-20-ci illərin mürəkkəb ictimai-siyasi mənzərəsini, baş verən hadisələri bədii ümumiləşdirmə yolu ilə məharətlə canlandıra bilmiş, bu fonda obrazların talelərini də ustalıqla ədəbi müstəviyə gətirmişdir. Hekayənin o dövrdə yazılmış əsərlərin çoxundan fərqli şəkildə, vulqar-sosioloji təsirlərdən, qondarmaçılıqdan uzaq olması onun ideya-bədii dəyərini daha da artırır.

O, sovet dövründə "Azadlıq bahası" adlı bir roman üzərində də işləmiş, əsərdən bəzi parçaları Tiflisdə Azərbaycan dilində çıxan mətbuat orqanlarında dərc etdirmişdir.

*Ələkbər Qərib Naxçıvanlının yaradıcılıq fəaliyyətinin ətraflı şəkildə tədqiqi onun istedadlı sənətkar olduğunu göstərməklə yanaşı, bütövlükdə, 1910-1930-cu illərin ədəbi prosesinin bir sıra əhəmiyyətli məqam və problemlərini də aydınlaşdırmağa imkan verir.*

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, professor***

***Muzey bələdçiləri üçün növbəti seminar-treninq Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində keçirilib.***

## Seminar-treninq keçirilib



Muxtar respublika Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edərək bildirib ki, ötən ildən başlayaraq muzeylərdə keçirilən seminar-treninqlər muzey işçilərinin iş prinsipi və onların davranış qaydalarına əməl etmələri baxımından əhəmiyyətlidir. Muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı bələdçilərin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir. Seminar-treninqlərdə muzey bələdçiləri vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında ətraflı məlumat əldə etmiş olurlar. Eyni zamanda bu tədbirlər muzey işçilərinin qədim diyarımızın bütün bölgələrində yerləşən muzeylərlə tanış olmasına şərait yaratmaq baxımından da önəmlidir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl işlər görülür. Muzeylərimiz üçün yeni binaların inşa olunması, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi muzey işinin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında bir sıra vəzifələr qoyur. Bu gün muzeylərimizdə hazırlıqlı, bilikli, xarici dilləri bilən, işlədiyi mədəniyyət ocağı haqqında ətraflı məlumata malik bələdçilərin olması çox vacibdir.

Diqqətə çatdırılıb ki, muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməli, yeniliklərdən xəbərdar olmalıdır. Bu ilin birinci yarısında muzeylərimizə 217 mindən çox ziyarətçi gəlmişdir ki, onların 45 minə yaxını xarici ölkə vətəndaşlarıdır.

Sonra muzey bələdçisinin təqdimatında muzeyin ekspozisiyasına baxış olub, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## 2017-ci ilin oktyabr ayında rayon (şəhər) Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) Məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Heydərabad Qəsəbə Mərkəzi | 17.10.2017 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 18.10.2017 | $11^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər "Araz" kinoteatrının binası | 19.10.2017 | $11^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 20.10.2017 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 24.10.2017 | $11^{00}$ |
| 6. | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 25.10.2017 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 26.10.2017 | $11^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 27.10.2017 | $11^{00}$ |

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 807